# "20 yanvar - müstəqillliyimizin və azadlığımızın təntənəsi" adlı tədbir keçirilib

**Xalqımız 20 Yanvar hadisələrinin 36-cı ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir. Bakının ən möhtəşəm məkanında Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə, milli iradəmizin şanlı-şərəfli bir salnaməsinə çevrilib.**

**Bu günlərdə Azərbaycan Hərb Tarixi Muzeyində 20 Yanvar Ümumxalq Hüzn Gününün 36-cı ildönümünə həsr olunmuş "20 Yanvar-müstəqillliyimizin və azadlığımızın təntənəsi" adlı tədbir keçirilib.**

**Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin nümayəndələri, Hərbi kollecin şəxsi heyəti iştirak ediblər.**



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olmuş həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən muzeyin rəisi e.o.polkovnik Elşad Pənahov bildirib ki, 20 Yanvar - Azərbaycan xalqının qan yaddaşı, eyni zamanda milli oyanış tarixidir. 20 yanvar hadisələri 40 il, 50 il, 100 il keçsə də daim qəlbimizdə qürur hissi ilə xatırlanacaq və gələcək nəsillər xalqımızın azadlığı və müstəqilliyi uğrunda canından keçmiş oğul və qızlarını heç vaxt unutmayacaqdır.

Qeyd olunub ki, 20 Yanvar Azərbaycan xalqının qan yaddaşı, eyni zamanda milli oyanış tarixidir. Dəfələrlə müxtəlif mənbələrdə qeyd olunan və geniş araşdırılan bu tarix illər keçsə də, Azərbaycan xalqının dostu və düşmənini tanıması üçün istinad edə biləcəyi bir tarix olaraq qalacaq.

Azərbaycanın tarixinə əbədi həkk olunmuş 20 Yanvar faciəsindən söz düşəndə həmişə onu haqlı olaraq xalqımızın tarixində şanlı və qanlı səhifəsi adlandırırlar. Həmin hadisələr əslində Azərbaycan cəmiyyətinin müstəqillik uğrunda mübarizəsinin, irticaçı qüvvələrə qəzəb və nifrətinin ifadəsidir. 20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, həmçinin xalqımızın istiqlal yolunda atdığı önəmli addım, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

Tədbirdə AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Şimali Azərbaycan XIX-XX əsrin əvvəlləri tarixi" şöbəsinin müdiri, t.ü.f.d, professor Hacı Həsənov "Azərbaycan xalqına qarşı törədilmiş növbəti sovet cinayəti" adlı məruzə ilə çıxış edib. Professor qeyd edib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanda günahsız insanların güllələbaran edilməsi əməliyyatı SSRİ Müdafiə, Daxili İşlər nazirlikləri, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təxribat qrupları tərəfindən təşkil olunmusdu. Bakılıların cəzalandırılmasına SSRİ-nin müdafiə naziri Dmitri Yazov, daxili işlər naziri Vadim Bakatin, DTK sədrinin müavini Filip Babkov bilavasitə rəhbərlik etmişdilər.



SSRİ-nin birinci və sonuncu prezidenti Mixail Qorbaçov başda olmaqla Sovet imperiyasının rəhbərliyi Azərbaycanı cəzalandırmaq üçün "erməni kartından" istifadə etdi. Guya Bakıya qoşun erməniləri, hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu açıq riyakarlıq idi.

M.Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzalamışdı. Fövqəladə vəziyyətin həmin gün saat 00-00 da qüvvəyə minməsinə baxmayaraq, qoşun hissələri üç saat əvvəldən şəhərdə qırğın törətməyə başlamışdılar.

SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. M.Qorbaçovun fərmanı qüvvəyə minənədək - yanvarın 20-də saat 00-dək artıq 9 nəfər öldürülmüşdü.

Fövqəladə vəziyyətin elan olunmadığı rayon və şəhərlərdə - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdi. Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmışdı. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri vardı.

Bütün bunlar göstərirdi ki, Sovet rəhbərliyinin məqsədi məhz azərbaycanlıları qanına qəltan etmək olmuşdu.

Dinc sakinlərin xüsusi amansızlıqla qətlə yetirildiyi və itkin düşdüyü, yüzlərlə soydaşımızın isə yaralandığı həmin gecədə Şimali Qafqazdan toplanmış rezervistlərin, onların arasında xalqımıza xüsusilə kin bəsləyən ermənilər də az deyildi, paytaxtımıza yeridilməsi bu qətliama rəvac verənlərin çirkin niyyətlərindən xəbər verirdi.

Bir sözlə, dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan Haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu.

Ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar hadisələrinə layiqli qiymət verildi. Dövlət başçısının 5 yanvar 1994-cü il tarixli fərmanı ilə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi Milli Məclisə tövsiyə olundu. Parlamentdə müzakirələrin yekunu olaraq 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul olundu, 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi.

Prezident İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoymuşdu. 2006-cı il yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidi fəxri adı almış şəxslərin ailə üzvləri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilib.

Sovet imperiyasının süqut öncəsi cəza tədbirlərinə əl atması, mahiyyətcə can üstündə olan ölünün aqoniyaşına bənzəyirdi. Sonrakı hadisələr də göstərdi ki, "öz" əhalisinə qarşı ağır döyüş texnikasından və ordu birləşmələrindən istifadə etməklə cəza aksiyası keçirən bir rejim, doğrudan da, tarix səhnəsindən silinməyə məhkum idi.




Tədbirdə çıxış edən 20 yanvar şəhidi Cavad Yunus oğlu İsmayılovun bacısı Reyhan İsmayılova o qanlı gecəni ürək ağrısı lə xatırlayaraq öz təəssüratlarını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, Bakıda və ölkəmizin digər bölgələrində qanlı 20 Yanvar gecəsində canlarından keçmiş Vətən övladlarının azadlıq mücadiləsi öz bəhrəsini verdi. Azərbaycan tarixi müstəqilliyinə qovuşdu, regionumuzun ən önəmli dövlətlərindən birinə çevrildi.

Şəhid bacısı qeyd edib ki, 2020-ci ildə baş vermiş 44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında işğal edilmiş ərazilərimizi düşməndən təmizlədi. Bu tarixi qələbə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş bütün soydaşlarımızın apardığı mübarizənin hədər getmədiyini göstərir.

Tədbirdə 20 Yanvar hadisələrindən bəhs edən sənədli filmin nümayişi olub.

*Nuranə NƏCƏFOVA*
*Tədqiqatçı-elmi işçi*